**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**Q Ə R A R I**

**Bakı şəhəri** **№ 258/6** **16 dekabr 2014-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə Komitənin 2014-2015-ci illər üzrə iş planının layihəsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında «Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə Komitənin Əsasnaməsi»nin təsdiq edilməsi barədə 2014-cü il 5 noyabr tarixli 256/4 saylı qərarının 3-cü «Komitənin 2014-2015-ci illər üzrə iş planının layihəsinin hazırlanması» bəndinin icrası ilə əlaqədar Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə Komitənin sədri A.Əliyevin məlumatını müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə Komitənin 2014-2015-ci illər üzrə iş planı təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə Komitənin rəhbərliyinə (A.Əliyev, S.Əsədullayev) və Komitənin işinə Palata tərəfindən təhkim olunmuş Q.Bayramova tapşırılsın ki, Komitənin 2014-2015-ci illər üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər.

**3.** Bu qərarın və Komitənin təsdiq edilmiş iş planının mətni Auditorlar Palatasının internet səhifəsində Azərbaycan, ingilis və rus dillərində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**